**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№361/8** **14 dekabr 2023-cü il**

**Auditin aparılması üzrə proqram təminatının hazırlanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 2.10-cu "Auditin aparılması üzrə proqram təminatının hazırlanması" bəndinin icrasına dair Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi tərəfindən auditorlar və mühasiblər üçün bir sıra proqram təminatları, onların xüsusiyyətləri, müsbət və mənfi cəhətlərinə dair hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditin aparılması üzrə proqram təminatının hazırlanması barədə" hesabat bəyənilsin (əlavə olunur).

2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və daxili auditor Ş.Əsgərovaya tapşırılsın ki, "Auditin aparılması üzrə proqram təminatının hazırlanması" bəndinin Auditorlar Palatasının 2024-cü il üzrə iş planına daxil olunması təmin edilsin.

3. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, 2025-ci ilin I rübünün sonunadək auditin aparılması üzrə proqram təminatına dair texniki tapşırığın hazırlanması və proqramlaşdırma üzrə mütəxəssislərə təqdim olunması təmin edilsin.

4. Bu qərarın mətnini Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**